Yeni Azərbaycan.- 2022.- 11 fevral.- S.8.



# Yenə gəlir yaz ayları

## Kiçik çillənin ilk 10 günlüyündə Xıdır Nəbi bayramını qeyd edərdilər

*İlhamə*



Qədim türklərin inancına görə, qış fəsli Böyük çillə, Kiçik çillə və Boz ay olmaqla, üç hissəyə bölünür. Böyük çillə 40 gün, Kiçik çillə 20 gün, Boz ay 30 gün davam edir. Boz ayın bitməsi ilə elimizə Novruz qədəm qoyur.

Bu təqvimlə dekabrın 21-dən yanvarın 31-dək Böyük çillə, yanvarın 31-dən fevralın 21-dək Kiçik çillə, fevralın 21-dən martın 21-dək Boz ay davam edir.

Adətən Böyük çillədən fərqli olaraq, Kiçik çillə dövründə daha kəskin soyuqlar müşahidə edilir, sərt şaxtalar olur. Eyni zamanda qar yağır.

Ona görə də Kiçik çilləyə "qışın oğlan çağı" da deyirlər.

Sərt soyuğuna görə Kiçik çillə mifologiyada amansız, həyatı donduran, qorxulu bir qüvvə kimi təsvir olunur. Elə çillə sözü özü də məşəqqət, əzab, əziyyət mənasında işlədilir.

Azərbaycanın bəzi bölgələrində Böyük çillədən Kiçik çilləyə keçəndə müəyyən mərasimlər təşkil olunurdu.

Kiçik çillənin birinci ongünlüyündə Xıdır Nəbi bayramı keçirilir, qovurğa qovrulur, hədik və digər yeməklər bişirilir. Çillədən çıxmaq ağrıdan, acıdan çıxmaq deməkdir. Kiçik çillə xalq arasında Böyük çillədən fərqli olaraq çətin dönəm kimi anlaşılır.

N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından verilən xəbərə görə, bu ilin ilk çərşənbəsi - Su çərşənbəsi fevral ayının 22-nə təsadüf edəcək.

Novruzun - bahar bayramının gəlişini müjdələyən çərşənbələrin ilki olan Su çərşənbəsi ilə təbiətdə ilk olaraq su cana gəlir.

Martın 1-i Od, 8-i Yel, 15-i isə Torpaq çərşənbəsi qeyd olunacaq. Yaz fəsli Azərbaycana martın 20-si saat 19:33-də daxil olacaq.

Qədim tarixə malik olan və el arasında geniş yayılmış bayramlardan biri də Xıdır İlyas və ya-Xıdır Nəbi adlandırılan mərasimdir. Bu bayram bir-birindən cüzi fərqlərlə demək olar ki, Azərbaycanın bütün bölgələrində keçirilir.

Bu bayram demək olar ki, bütün türk xalqlarında keçirilir. Daha çox Xıdırelləz, Hıdırelləz bayramı adı ilə tanınır. Hıdırelləz böyük çoxluqla Anadolu və Balkan türkləri arasında qeyd edilməkdədir. Qədimdən Ruzi-Hızır (Xızır günü), yəni Xıdırelləz xalq arasındakı inama görə Xızırla İlyasın bir araya gəlməsi xatirinə keçirilir. Bu bayram yeni təqvimə görə hər il 6 mayda qeyd olunur.

Bu bayram Azərbaycanda Xızır Nəbi bayramı, İranda Əhli-haqq zümrələri arasında Zati Mutlaq (Ali) şərəfinə Əli-Heydər adıyla, Təbriz ətrafındakı Qızılbaşlar zümrəsində isə yenə də Xızır Nəbi bayramı adı ilə tanınır.

Xıdır İlyas adətən təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi və s. təbii proseslərlə müşayiət edilir. Tədqiqatlarda Xıdır Nəbi bir şəxsiyyət olaraq "suyun, külək və havanın himayəçisi" kimi təqdim olunur, Xızır peyğəmbərlə eyniləşdirilir.

Dədə-babalarımız hər il qış yarı olanda Böyük çilləylə Kiçik çillə arasında Xıdır bayramı keçirərdilər. Bəzi yerlərdə Xızır Nəbi, bəzi yerlərdə isə Xıdır İlyas adı ilə tanınan bu el bayramı ötən əyyamlarda böyük təmtəraqla qeyd olunardı. Köhnə kişilərin hesabına görə Kiçik çillənin əvvəlində, indiki vaxtla götürdükdə təqribən fevralın 1-ci ongünlüyü ərzində axşam şər qarışandan sonra uşaqlar, cavanlar bir yerə toplaşar, dəstələnib Xıdır nəğməsi oxuya-oxuya qapıları döyər, Xıdır adına pay yığardılar.

Başqa mənbələrdə isə həmin gecənin İkinci çillənin qurtarmasına 2-5 gün qalmış keçirildiyi bildirilir. Və həmin bu mərasim "Xıdır Nəbi" bayramı adlandırılır.

Qodu gəzdirənlər qazanı döyəcləyə-döyəcləyə oxuyardılar:

*Evdəkilər evdədimi*
*Çöldəkilər çöldədimi*
*Verənin oğlu olsun*
*Verməyənin qızı olsun*
*Adı Fatma olsun*
*Qaşları çatma olsun*
*Anası suya gedəndə*
*Təndirə düşsün*
*Boğulsun ölsün*
*Boş qaytarmayın.*

Həmin gün mütləq buğdadan qovud hazırlanar, həm evdəkilər yeyər, həm də pay verilərdi.

Çillə qarpızının kəsildiyi günlərdi bu günlər. Nənə-babaların "Qovudunuz bərəkətli, qarpızınız çox tumlu olsun" duasının tarixi də məhz bu mərasimlərə bağlıdır. Bəzi bölgələrimizdə nişanlı qızların evlərinə xonçalarda çillə qarpızı göndərmək ənənəsi indi də qalır.

Xıdır İlyasın darda qalanlara kömək etdiyinə inanıb, imdad diləyərdilər. "Qul sıxışmayınca Xıdır İlyas yetişməz" (Qıl əziyyət çəkməsə Xıdır İlyas köməyə gəlməz) məsəli də bizlərə dədə-babalarımızın inancından qalıb. Bu axşam Xıdır Nəbi gələr deyə, dilinizi şirin, niyyətinizi saf tutun. Qədim türklərin bir adəti var idi. Diləklərini yazıb, gül ağaclarının budağından asardılar, çin olacağına inanardılar. İnanaq. Gözəlliklərə, gözəl diləklərin yerinə yetəcəyinə inanaq.